*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 7 Sayı: 9 / 33-38 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2025 / Volume: 7 Issue: 9 / 33-38 e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/51/33-38

**Mahmood Athar Azhar**
Azərbaycan Dillər Universiteti
doktorant
https://orcid.org/0009-0003-7206-6340
pakpatri@gmail.com

# Türkiyə – Pakistan münasibətlərinin tarixi və müasir strateji tərəfdaşlıq

**Xülasə**

Türkiyə–Pakistan münasibətləri dərin tarixi köklərə və ortaq mədəni-mənəvi dəyərlərə əsaslanır. Pakistanın müstəqillik əldə etdiyi ilk illərdən iki dövlət arasında qardaşlıq və dostluq əlaqələri formalaşmış, bu münasibətlər sonrakı onilliklərdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Məqalədə Türkiyə–Pakistan əlaqələrinin tarixi inkişaf mərhələləri, siyasi, iqtisadi, hərbi və mədəni sahələrdə əməkdaşlıq istiqamətləri təhlil olunur. Xüsusilə, iki ölkə rəhbərlərinin və yüksək vəzifəli rəsmilərin qarşılıqlı səfərləri bu münasibətlərin möhkəmlənməsində mühüm rol oynamışdır. Prezidentlər, baş nazirlər və xarici işlər nazirlərinin mütəmadi görüşləri yalnız ikitərəfli əlaqələrin inkişafını deyil, həm də regional və beynəlxalq məsələlərdə ortaq mövqelərin formalaşmasını təmin etmişdir.

Müasir dövrdə Türkiyə və Pakistan müdafiə sənayesi, təhlükəsizlik, enerji, nəqliyyat, təhsil və mədəniyyət sahələrində əməkdaşlığı daha da dərinləşdirir. Hər iki ölkə regional sabitliyin qorunması, terrorizmə qarşı mübarizə və İslam dünyasının birliyi məsələlərində bir-birinə dəstək verir. Aparılan araşdırmalar göstərir ki, Türkiyə–Pakistan münasibətləri yalnız tarixi qardaşlıq üzərində deyil, həm də strateji maraqlar və ortaq hədəflər əsasında inkişaf etməkdədir. Bu tərəfdaşlığın gələcəkdə daha geniş regional və beynəlxalq əhəmiyyət kəsb edəcəyi proqnozlaşdırılır.

***Açar sözlər:*** *Türkiyə, Pakistan, strateji tərəfdaşlıq, diplomatik-siyasi münasibətlər, tarixi əlaqələr, səfər*

**Mahmood Athar Azhar**
Azerbaijan University of Languages
PhD student
https://orcid.org/0009-0003-7206-6340
pakpatri@gmail.com

# History of Turkey – Pakistan Relations and Modern Strategic Partnership

**Abstract**

Turkey – Pakistan relations are based on deep historical roots and shared cultural and spiritual values. Since the early years of Pakistan's independence, the two states have established strong bonds of brotherhood and friendship, which over decades have developed into the strategic partnership. The article analyzes the historical development stages of Turkey – Pakistan relations, as well as the directions of cooperation in the political, economic, military and cultural spheres. In particular, mutual visits between the leaders and high-ranking officials of the two countries have played an important role in strengthening these relations. Regular meetings of presidents, prime ministers, and foreign ministers have ensured not only the development of bilateral relations, but also the formation of common positions on regional and international issues.

In the modern era, Turkey and Pakistan are futher deepening cooperation in the fields of defense industry, security, energy, transport, education and culture fields. Both countries support each other in ensuring regional stability, combating terrorism, and promoting unity in the Islamic world.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The research demonstrates that Turkey – Pakistan relations are developing not only on the basis of historical brotherhood, but also on the basis of strategic interests and common goals. It is predicted that this partnership will acquire even greater regional and international significance in the future.

***Keywords:*** *Turkey, Pakistan, strategic partnership, diplomatic-political relations, historical relations, visit*

## Giriş

Müasir mərhələdə Türkiyə və Pakistan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətləri dərin tarixi köklərə malikdir. Bu strateji tərəfdaşlıq münasibətləri özünü həm ikitərəfli, həm də regional əlaqələr çərçivəsində göstərir.

Türkiyə və Pakistan arasında yaranmış yaxın münasibətlər yalnız dövlətlər səviyyəsində deyil, eyni zamanda bu ölkələrin xalqları arasında da qurulmuşdur. İki dövlət arasında yalnız diplomatik-siyasi deyil, həm də hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əlaqələr qurulmuş, iqtisadi-ticarət və digər istiqamətlərdə də əməkdaşlıq üçün böyük planlar və perspektivlər müəyyən edilmişdir. İki ölkə hərbi və siyasi sahədə olan sıx əməkdaşlığı möhkəmləndirir, Yaxın, Orta Şərq regionunda müttəfiqlik münasibətlərini inkişaf etdirir.

Pakistanla Türkiyə arasındakı münasibətlərin müasir mərhələdə strateji tərəfdaşlıq səviyyəsinə çatması, onun tarixi köklərinin araşdırılmasını tələb edir. Bu əlaqələr hələ Pakistan yaranmazdan əvvəl İslam qardaşlığı əsasında başlamışdır. 1923-cü ildə müasir Türkiyə Cümhuriyyəti qurulmazdan və Pakistan yaranmazdan əvvəl Hindistan müsəlmanları Osmanlı hökmdarları ilə əlaqələr qurmuş, onların apardığı müharibələri dəstəkləmişlər. Məsələn, Rusiya–Türkiyə (1877-1878), Türkiyə–Yunanıstan (1897) və Balkan müharibələrində (1912) Hindistan müsəlmanları ortaq dini kimliyə görə Osmanlıları dəstəkləyirdilər.

Hindistan müsəlmanlarının türk qardaşlarına verdiyi dəstək Birinci Dünya Müharibəsi və Türkiyə Qurtuluş Savaşı dövründə də davam etmişdi (Sheharyar Khan, 2020, p. 15). Osmanlı İmperiyasına dəstək əsasında qurulan bu mənəvi ortaqlıq münasibətlərin təməl sütununu təşkil edirdi. İmperialist dövlətlərin Osmanlı İmperiyasını bölmək və bölüşdürmək planları qarşısında imperiyanı xilas etmək idealı müsəlmanlar arasında daha da geniş vüsət almışdı. Qurtuluş Savaşı dövründə pakistanlılar, daha sonra Britaniya Hindistanında yaşayan müsəlmanlar Mustafa Kamal Atatürkün ordusuna yardım topladılar. Bu yardımların sayəsində, 1924-cü ildə Türkiyə Cümhuriyyətinin ilk milli bankının – Türkiye İş Bankasının nizamnamə kapitalına 250.000 türk lirəsi toplandı. Pakistanın qurucusu Məhəmməd Əli Cinnah Atatürkə heyran idi və ölkəsi üçün türk inkişaf modelini üstün tuturdu (Aliev, 2021).

1947-ci il avqustun 15-də Hindistanın müstəqilliyi təsdiq ediləndə, müsəlmanların yaşadığı bölgələrin də daxil olduğu Pakistan dövləti də rəsmi olaraq yaradıldı. Bundan sonra iki ölkə arasında münasibətlər yeni mərhələdə davam etdi.

**Tədqiqat**

Pakistanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biri də dərhal bu ölkə ilə həm siyasi, həm də hərbi sahədə əlaqələri inkişaf etdirmək və dərinləşdirmək kursunu götürən Türkiyə oldu. 1947-ci ildə Türkiyənin Pakistana ilk səfiri Yəhya Kamal və Mian Bəşir Əhməd isə Türkiyəyə akkreditə edildi (Ozdemir & Zeb, 2024, p. 67).

1951-ci ilin martından başlayaraq Türkiyə–Pakistan münasibətlərini daha yüksək səviyyəyə çatdırmaq üçün bütün sahələrdə əməkdaşlığı nəzərdə tutan müqavilənin imzalanması ətrafında müzakirələr aparılırdı. 1951-ci il iyulun 26-da Türkiyə ilə Pakistan arasında dostluq müqaviləsi rəsmiləşdi. Bu müqaviləni Türkiyə adından xarici işlər naziri Fuat Köprülü, Pakistan tərəfindən səfir Mian Bəşir Əhməd imzaladı. 1951-ci il iyulun 26-da imzalanan müqavilə 1952-ci il mayın 5-də təsdiq edilmiş və 1952-ci il mayın 13-də rəsmi qəzetdə dərc olunduqdan sonra qüvvəyə minmişdir.

Türkiyə–Pakistan dostluq müqaviləsi iki ölkə arasında mövcud olan dostluq və qardaşlıq əlaqələrini davam etdirmək, əməkdaşlığın əhatə dairəsini genişləndirmək və qarşılıqlı əlaqələri gücləndirmək məqsədi daşıyırdı. Müqavilə Pakistanın yaradılmasından sonrakı prosesdə iki ölkə arasında münasibətlərin inkişafının davam edəcəyinin konkret ifadəsi idi. 1947-ci ildən siyasi, mədəni, diplo-

matik və iqtisadi zəmində dostluq yolu ilə davam edən əlaqələr 1960-cı ildən sonra həm Soyuq Müharibənin kon'yunktur mühiti, həm də Türkiyənin xarici siyasətinin gedişatı ilə daha da genişlənəcəkdi (Türkiye–Pakistan Dostluk Antlaşması, 1951).

Tədqiq olunan illərdə Pakistan və Türkiyə arasında münasibətlər çoxtərəfli əsasda da inkişaf edirdi. 1964-cü ildə İnkişaf Naminə Regional Əməkdaşlıq Təşkilatının (RCD) yaradılması Pakistan, Türkiyə və İran arasında əlaqələrin möhkəmləndirilməsində bir dönüş nöqtəsi oldu və bu xalqlar arasında iqtisadi, mədəni və texniki əməkdaşlığın gücləndirilməsi istiqamətində əhəmiyyətli bir addım atıldı. Bu təşəbbüs nəinki ortaq mədəni və coğrafi irsi paylaşan dövlətləri bir-birinə yaxınlaşdırdı, həm də o dövrdə Qərbə qarşı artan məyusluğu əks etdirdi (Ozdemir & Zeb, 2024, p. 67).

1960-cı illərdə Pakistan və Türkiyə arasında intensiv şəkildə nümayəndə heyətlərinin mübadiləsi aparılır və siyasi dialoq intensivləşirdi. Ərəb–İsrail münaqişəsi və İslam Əməkdaşlıq Təşkilatındakı fəaliyyətlə bağlı tərəflərin baxışları, beynəlxalq həyatın digər məsələlərinə yanaşmaları yaxın və ya praktiki olaraq tamamilə eyni idi. Məsələn, 1968-ci ildə Pakistan və Türkiyə liderləri Avropa İqtisadi Birliyini nümunə götürərək Müsəlman Dövlətlərinin Ümumi Bazarının yaradılması təşəbbüsü ilə çıxış etdilər (K otnosheniyam mezhdu Pakistanom i Turciey, 2007).

Bundan əlavə, RCD-nin 1985-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) çevrilməsi bu çərçivədə Pakistan və Türkiyə arasında dərinləşən münasibətləri göstərirdi. Bu transformasiya üzv dövlətlər arasında birlik hissi və əməkdaşlıq ruhunun inkişaf etdirilməsində mühüm rol oynadı, onların ortaq istəklərini və çağırışlarını vurğuladı. 1960-cı illərdə və ondan sonrakı dövrdə iki ölkə arasında Kipr, Cammu və Kəşmirdəki vəziyyət də daxil olmaqla, əsas beynəlxalq məsələlərdə strateji konsensus mövcud idi. Türkiyə, 1965 və 1971-ci illərdə Hindistanla münaqişə zamanı Pakistanın yanında olmuş, onun mövqeyini açıq şəkildə dəstəkləmiş və Hindistanın hərəkətlərini tənqid etmişdir (Ozdemir & Zeb, 2024, p. 68).

1980-ci illərdə hər iki ölkənin rəhbərliyi Əfqanıstan ətrafında baş verən hadisələrə ümumən oxşar yanaşmaya sadiq qalaraq, sovet qoşunlarının ölkədən tezliklə çıxarılmasını və silahlı əfqan müxalifətinə kömək etməyi təkid edirdi (K otnosheniyam mezhdu Pakistanom i Turciey, 2007). 1989-cu ilin fevralında sovet qoşunlarının çıxarılmasından sonra başlayan vətəndaş müharibəsində Pakistan Talibana, Türkiyə isə Şimal Alyansına dəstək verdi. Bu dövr həm də hər iki ölkənin özünəməxsus strateji maraqlarına üstünlük verdiyini göstərirdi: İslamabad Əfqanıstanda cərəyan edən vəziyyətə dərindən qarışmışdı, Ankara isə diqqətini Balkan regionunun yeni müstəqil dövlətləri ilə əlaqə qurmağa yönəltmişdi (Ozdemir & Zeb, 2024, p. 68). 1980-1990-cı illərdə Pakistanın Şimal Alyansını müdafiə etməsi, Türkiyənin isə Talibanı dəstəkləməsi səbəbindən iki ölkə arasında münasibətlər gərginləşdi (Ahad & Anwar, 2022, p. 758).

1987-ci ildə birgə hərbi təlimlər və 1988-ci Hərbi Məsləhətçi Qrupu vasitəsilə əlaqələrin inkişafı Pakistan–Türkiyə strateji münasibətlərini daha da gücləndirdi və onların ittifaqının dərinliyini möhkəmləndirdi (Ozdemir & Zeb, 2024, p. 68).

1990-cı illərdə ikitərəfli münasibətlərdə durğunluq müşahidə olunurdu. 1991-ci ildə Türkiyə diqqətini Sovet İttifaqı və Yuqoslaviyanın parçalanmasına yönəldərək, Balkanlarda, Qafqazda və Mərkəzi Asiyada iştirakını və təsirini gücləndirdi. Digər tərəfdən, Pakistan Əfqanıstanda postsovet dövründə sabitliyin təmin olunmasında iştirak edirdi. Eyni zamanda, həm Türkiyə, həm də Pakistanda siyasi qeyri-sabitlik, siyasi və iqtisadi böhran hökm sürürdü. Soyuq Müharibənin və bipolyar sistemin sona çatması iki ölkə arasında qarşılıqlı münasibətlər üçün böyük çağırışlar yaratmışdı. Bununla belə, bu dövrdə baş verən mühüm hadisələrdən biri Baş nazir Süleyman Dəmirəlin 1992-ci ildə Pakistana səfəri və burada əlaqələrin iqtisadi ölçüsünün diqqət mərkəzində olması idi. Bu dövrdə Türkiyə Pakistanın avtomobil yolu layihəsinə 600 milyon dollar sərmayə qoydu və 165 km uzunluğunda Peşəvər–İslamabad avtomobil yolunun tikintisi tenderini türk şirkəti qazandı. Bundan başqa, Türkiyə, Pakistan və İran, İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) müstəqillik əldə etmiş altı Mərkəzi Asiya respublikasını da əhatə edəcək şəkildə genişləndirməyi nəzərdən keçirdilər. Bununla belə, Səudiyyə Ərəbistanı ilə birlikdə hər üç ölkə regionda nüfuz uğrunda yarışırdı (Sheharyar Khan, 2020, pp. 19-21).

1990-cı illərin ikinci yarısında hər iki ölkədə daxili siyasi qarışıqlıqlar baş verdi, nəticədə ikitərəfli münasibətlərdə nisbətən durğunluq yaranmışdı. 1997-ci il fevralın 28-də Türkiyədə ordu ilə mülki

hökumət və daha sonra qeyri-sabit koalisiya hökumətləri arasında yaranan gərginlik ölkəni böhran vəziyyətinə saldı. General Pərviz Müşərrəf demokratik yolla seçilmiş Nəvaz Şərifin hökumətini devirəndə Pakistan da hərbi çevrilişlə üzləşdi. Pakistanda baş verən təbii fəlakətlər, daxili qarşıdurmalar və problemlər Türkiyəni həm maddi, həm də siyasi dəstək verən ən öndə gedən ölkəyə çevirdi.

Türkiyədə Ədalət və İnkişaf Partiyasının iqtidara gəlməsi ilə iki ölkə arasında əlaqələrdə çox böyük inkişaf və dinamizm müşahidə olundu. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan 2003-cü ilin iyununda Pakistana ilk səfərində həmkarı ilə birlikdə Kipr və Kəşmir məsələlərinə dəstək olduqlarını bir daha vurğuladı (Abbasi, Khatwani & Kolachi, 2020, pp. 71–72).

Yüksək səviyyəli səfərlər ənənəsinə sadiq qalan Pakistan Prezidenti Asif Əli Zərdari 2009-cu ildə Üçüncü Üçtərəfli Zirvə toplantısında iştirak etmək üçün Türkiyəyə səfər etdi. Ərazisinə çoxsaylı hücumlar da daxil olmaqla, Əl-Qaidənin problemləri ilə üzləşən Türkiyə güclü beynəlxalq terrorla mübarizə strategiyası axtarmağa başladı. Artan təhdidlər şəraitində Türkiyə Pakistanla təhlükəsizlik müqavilələrinin rəsmiləşdirilməsinə üstünlük verdi ki, bu da iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsinin göstəricisi idi. Bu razılaşmalar iki xalq arasında fikir ayrılıqlarının aradan qaldırılması və terrorizmə qarşı kollektiv mübarizədə onların yaxınlaşması baxımından əhəmiyyətli idi (Ozdemir & Zeb, 2024, pp. 68–71).

Türkiyə hökuməti Kəşmir məsələsində Pakistanın mövqeyini hər zaman dəstəkləmişdir. 2016-cı ilin noyabr ayında Pakistana səfəri zamanı Rəcəb Tayyib Ərdoğan Hindistan və Pakistan arasında Kəşmir münaqişəsinin kəşmirlilərin iradəsinə uyğun həllinə çağırırdı. R.T.Ərdoğan bildirmişdi ki, Kəşmir mübahisəsi türk xalqının hisslərini və vicdanını çox incidir (“Kashmir dispute should be solved according to Kashmiris’ will: Erdogan”, 2016). Səfər zamanı hər iki prezident Kəşmirdə insan hüquqlarının pozulmasından ciddi narahat olduqlarını və problemin Kəşmir xalqının istəklərinə uyğun həll edilməsinin vacibliyini vurğuladılar (“Turkish President Erdogan arrives in Islamabad”, 2016).

Prezident Rəcəb Tayyib Ərdoğanın 2016-cı ilin noyabrında Pakistana rəsmi səfəri zamanı Pakistanla Türkiyə arasında birgə kommunike imzalandı. Kommunikeyə əsasən, dövlətlər arasında ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi haqqında razılıq əldə edildi (“Turkey, Pakistan vow to strengthen ties further”, 2016).

R.T.Ərdoğanın bu səfəri iki ölkə rəsmilərinin intensiv görüşmələrinə və qarşılıqlı dialoqun inkişafına təkan verdi. Belə ki, Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu 2018-ci il sentyabrın 13–14-də Pakistanda rəsmi səfərdə olmuş, Pakistanın Baş naziri İmran Xan və Quru Qoşunlarının komandanı general Qamar Caved Bacva ilə görüşmüşdür. Eyni zamanda Pakistanın Baş naziri İmran Xan 2019-cu il yanvarın 3–4-də yüksək səviyyəli nümayəndə heyəti ilə Türkiyədə rəsmi səfərdə olmuş və Prezident R.T.Ərdoğan tərəfindən qəbul edilmişdir. Səfər çərçivəsində xarici işlər naziri Mövlud Çavuşoğlu Pakistanın xarici işlər naziri Şah Mahmud Qureşi ilə görüşmüşdür.

Qarşılıqlı səfərlər intensiv olub, münasibətlərin inkişafına xidmət edirdi. Türkiyənin xarici işlər naziri M.Çavuşoğlu 2021-ci il yanvarın 12–14-də Pakistanda rəsmi səfərdə oldu. Səfər çərçivəsində Pakistan Prezidenti Arif Alvi ilə görüş zamanı M.Çavuşoğluna “Hilal-e Pakistan” medalı təqdim edilmişdir. Səfər zamanı Türkiyə xarici işlər naziri Pakistanın Baş naziri İmran Xan, Pakistanın xarici işlər naziri Şah Mahmud Qureşi və Quru Qoşunlarının komandanı general Qamar Caved Bacva ilə görüşlər keçirmiş və Pakistanın Federal Təhsil Naziri Şəfqət Mahmood tərəfindən Türkiyə Maarif Vəqfinin Pakistandakı fəaliyyəti və statusu ilə bağlı anlaşma memorandumu imzalanmışdır.

İslamabad səfərindən sonra Türkiyə xarici işlər naziri M.Çavuşoğlu Kəraçidə də olmuş, burada Türkiyə Baş Konsulluğunun yeni binasının rəsmi açılışında iştirak etmişdir (*Türkiye – Pakistan ikili ilişkileri*, 2022).

Türkiyə ilə Pakistan arasında yaranan və inkişaf edən münasibətlər özünün ən yüksək mərhələsinə – strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Belə ki, 2025-ci ilin fevral ayında Türkiyə Prezidenti R.T.Ərdoğanın Pakistana səfərinin əsas məqsədi iki ölkə arasında olan strateji tərəfdaşlıq münasibətlərini inkişaf etdirmək idi. Bu səfər zamanı ticarət, müdafiə, enerji, təhsil, mədəniyyət sahələrində müqavilələr imzalanmışdır. Səfərin ən mühüm nəticələrindən biri təhsil, mədəniyyət və dini məsələlərdə əməkdaşlığın daha da dərinləşdirilməsi, əsas diqqətin yeni nəsil layihələrə yönəldilməsi oldu.

2025-ci il müqavilələri rəqəmsallaşma və ekoloji davamlılıq kimi qlobal tendensiyaları da əhatə edirdi (Demir, 2025a).

Qeyd edək ki, Pakistan Şərqi Aralıq dənizi, Kipr və Liviya kimi məsələlərdə Türkiyənin mövqeyini qəbul edir. Hər iki ölkə Əfqanıstanda sabitliyi dəstəkləyir və regionda radikal ünsürlərlə mübarizədə oxşar narahatlıqları bölüşür.

Türkiyə – Pakistan münasibətlərində strateji tərəfdaşlıq vizyonunu gücləndirmək üçün önə çıxan bəzi əsas imkanlar və prioritetlər müdafiə sənayesi tərəfdaşlığı, iqtisadi inteqrasiya, çoxtərəfli diplomatiya: İƏT, D-8 və BMT kimi beynəlxalq platformalarda koordinasiyanın artırılması, qlobal məsələlərdə ümumi mövqe tutmaq, insanlar arasında qarşılıqlı əlaqədir (Demir, 2025b).

## Nəticə

Beləliklə, Türkiyə – Pakistan münasibətləri dərin tarixi köklərə malikdir və iki xalq arasındakı qardaşlıq, qarşılıqlı hörmət və tərəfdaşlıq üzərində qurulmuşdur. XX əsrin ortalarından başlayaraq, Pakistan dövlətinin müstəqillik əldə etməsindən sonra bu münasibətlər, siyasi, iqtisadi, mədəni sahələrdə davamlı olaraq inkişaf etmişdir. Türkiyənin beynəlxalq arenada Pakistana göstərdiyi diplomatik-siyasi dəstək və Pakistanın Türkiyənin regional və qlobal təşəbbüslərini müdafiə etməsi münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə zəmin yaratmışdır.

Müasir mərhələdə iki dövlət arasında çoxsaylı və səmərəli qarşılıqlı səfərlər həyata keçirilmişdir ki, bu görüşlər müdafiə sənayesi, hərbi əməkdaşlıq, enerji və nəqliyyat layihələri, həmçinin təhsil və mə-dəniyyət sahələrində əməkdaşlığın hüquqi-normativ bazasının zənginləşməsinə və inkişafına töhfə vermişdir. Hər iki ölkənin regional sabitlik, terrorizmə qarşı mübarizə və İslam dünyasının həmrəyliyi məsələlərində mövqeyi üst-üstə düşür.

Tədqiqatdan aydın olur ki, Türkiyə – Pakistan münasibətləri yalnız tarixi qardaşlıq əlaqələrinə əsaslanmır, həm də müasir beynəlxalq siyasətdə strateji əhəmiyyət kəsb edərək iqtisadi inteqrasiyanın dərinləşməsi, birgə layihələrin genişləndirilməsi və beynəlxalq təşkilatlar çərçivəsində bu tərəfdaşlığın inkişafı üçün geniş perspektivlər vəd edir.

## Ədəbiyyat

1. Abbasi, I., Khatwani, M., & Kolachi, M. (2020). Pakistan–Turkey relations: Political and economic dimensions. *Biannual Research Journal*, 54(1), 69–80.
2. Ahad, M., & Anwar, M. (2022, July–September). The road towards friendship: A study of Pakistan–Turkey relations 2000–2013. *Pakistan Languages and Humanities Review*, 6(3), 756–767.
3. Aliev, A. (2021, October 22). Sila dvuh: kak Turciya i Pakistan menyayut rasklad sil v musul'manskom mire. *TRT na russkom*. https://www.trtrussian.com/mnenie/sila-dvuh-kak-turciya-i-pakistan-menyayut-rasklad-sil-v-musulmanskom-mire-6927104
4. Demir, C. (2025a). Cumhurbaşkanı Erdoğan'ın 2020–2025 Pakistan ziyaretlerinin analizi. *Güney Asya Stratejik Araştırmalar Merkezi*. https://gasam.org.tr/cumhurbaskani-erdoganin-2020-2025-pakistan-ziyaretlerinin-analizi
5. Demir, C. (2025b). Türkiye–Pakistan ilişkilerinin geleceği ve stratejik derinlik. *Güney Asya Stratejik Araştırmalar Merkezi*. https://gasam.org.tr/turkiye-pakistan-iliskilerinin-gelecegi-ve-stratejik-derinlik/
6. K otnosheniyam mezhdu Pakistanom i Turciey. (2007, July 8). *Институт Ближнего Востока*. http://www.iimes.ru/?p=5951
7. Kashmir dispute should be solved according to Kashmiris' will: Erdogan. (2016). https://dunyanews.tv/en/Pakistan/361378-Kashmir-dispute-should-be-solved-according-to-Kash
8. Ozdemir, G., & Zeb, R. (2024). Dynamics of Pakistan–Türkiye relations in a challenging global order. *Strategic Studies*, 44(1), 66–88.
9. Sheharyar Khan, M. (2020). Dynamics of Pakistan–Turkey relations. *Pakistan Review of Social Sciences*, 1(2), 14–24.

10. Türkiye–Pakistan Dostluk Antlaşması (29 Temmuz 1951). (n.d.). *Atatürk ansiklopedisi*. https://ataturkansiklopedisi.gov.tr/detay/1035/T%C3%BCrkiye-Pakistan-Dostluk-Antla%C5%9Fmas%C4%B1-(29-Temmuz-1951)
11. Türkiye–Pakistan ikili ilişkileri. (2022). *Türkiye Cumhuriyeti İslamabad Büyükelçiliyi*. https://islamabad-be.mfa.gov.tr/Mission/ShowInfoNote/351926
12. Turkey, Pakistan vow to strengthen ties further. (2016). *Anadolu Agency*. https://www.aa.com.tr/en/asia-pacific/turkey-pakistan-vow-to-strengthen-ties-further/687871
13. Turkish President Erdogan arrives in Islamabad. (2016). *Dawn*. https://www.dawn.com/news/1296714/turkish-president-erdogan-arrives-in-islamabad

Daxil oldu: 01.04.2025
Qəbul edildi: 16.08.2025